## «İQTİSADİ FUTBOL» - «VISA», Mərkəzi Bank və Vergilər Nazirliyinin birgə layihəsi

«VISA» şirkəti Mərkəzi Bank və Vergilər Nazirliyi ilə birgə «İqtisadi futbol» adlı yeni layihə həyata keçirməyə başlayıb. Öyrədici interaktiv oyundan ibarət olan layihə gənclərin maliyyə savadlılığının artırılması istiqamətində «VISA»nın qlobal təşəbbüsünün tərkib hissəsi hesab olunur. Bu dinamik və heyrətamiz oyun əsasən yeniyetmələr və gənc nəsil üçün nəzərdə tutulub və onların maliyyə biliklərinin artırılması, məsuliyyətli və şüurlu büdcə yığımı, vergilərin ödənilməsinin əhəmiyyəti, vergi ödənişi qaydaları barədə zəruri məlumatlar əldə etmək məqsədini güdür.

«VISA» şirkətinin MDB və Cənub Şərqi Avropa üzrə baş direktoru Jan Mark Tontinin sözlərinə görə, rəsmi sponsoru FİFA-nın dəstəklədiyi «İqtisadi futbol» oyunu bir neçə il ərzində bütün dünyada populyarlıq qazanıb və artıq iştirakçıların sayı milyonlarladır. Rusiya, Ukrayna və Belarus kimi qonşu dövlətlər də daxil olmaqla 30-dan artıq ölkədə həyata keçirilən bu oyunda iştirak edənlər FİFA dünya çempionatının virtual meydançasında istənilən futbol komandası ilə oynaya bilər. Dünyada insanların ən çox sevdiyi idman növü futbol olduğundan, «VISA» məhz bu oyuna müraciət edib.

«İqtisadi futbol» oyununu maliyyə savadlılığı sahəsində ən son texnologiyalara əsaslanan bir layihə adlandıran J.Tonti oyunçuların pulun idarə olunması sahəsində təfərrüatlı biliklər əldə etməsinə imkan verdiyini bildirib: «Biz müəyyən etdik ki, maliyyə sahəsində savadlı cəmiyyət ölkənin sosial və iqtisadi inkişafının əsasıdır. «VISA» nağdsız ödənişlər sahəsində bir lider kimi, 10 ildən artıqdır ki, bütün dünyada insanların öz maliyyələrini daha yaxşı idarə etməsi və nəticə etibarilə həyat standartlarını artırması üçün onların bilik və bacarıqlarının inkişaf etdirilməsi istiqamətində maliyyə savadlılığı proqramları hazırlamaqdadır. Azərbaycan MDB ölkələri arasında «VISA»nın ən əsas bazarlarından biridir və biz partnyorlarımız olan Mərkəzi Bankın və Vergilər Nazirliyinin bu cür layihələrdə verdiyi dəstəyi yüksək qiymətləndiririk. Hesab edirik ki, bu qurumların birgə dəstəyi sayəsində Azərbaycanda «VISA»nın ilk maliyyə və təhsil layihəsi olan «İqtisadi futbol»u təqdim etməklə geniş iştirakçı kütləsinin marağına səbəb olacağıq».

Mərkəzi Bankın İnkişaf departamentinin direktor müavini Natəvan Məmmədova respublikamızda əhalinin bank, kredit, maliyyə, vergi və digər sahələrdə iqtisadi biliklər əldə etməsi yönündə bir çox layihələrin həyata keçirildiyini, «İqtisadi futbol» layihəsinin bu sahədə daha bir yenilik olmaqla, gənc nəslin maariflənməsində mühüm əhəmiyyət daşıdığını qeyd edib: «Biz maliyyə məhsulları haqqında məlumatlılığı artırmaq, iqtisadi təhsili olmayan yetkin yaşlı insanların öz büdcələrini planlaşdırmalarına yardım etmək, bankçılıq və maliyyənin əsaslarını məktəb şagirdlərinə, tələbələrə öyrətmək, iqtisadiyyat və maliyyə haqqında xəbərləri düzgün və peşəkar səviyyədə paylaşmaları üçün KİV nümayəndələrinə təlimlər keçmək məqsədilə böyük miqdarda maliyyə və intellektual resurslar ayıraraq müxtəlif layihələr həyata keçiririk. «VISA» şirkəti ilə birgə həyata keçirilən bu layihə də belə tədbirlərin tərkib hissəsidir və ümid edirik ki, bu layihə şagirdlər və tələbələr, oğlanlar və qızlar, həmçinin yetkin yaşlı nəsil arasında böyük marağa səbəb olacaqdır».

Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət idarəsinin rəisi Elçin Məmmədov əhalinin maarifləndirilməsinə xidmət edən hər bir təşəbbüsü yüksək qiymətləndirdiyini, yeni iqtisadi layihənin bu baxımdan faydalı olacağına inandığını qeyd edib. Bildirib ki, Vergilər Nazirliyinin qarşısında duran mühüm vəzifələrdən biri də informasiya texnologiyalarından istifadə etməklə əhali arasında vergi biliklərini artırmaqdır. Son ilər nazirlik bu istiqamətdə sistemli tədbirlər həyata keçirməkdədir. Vergilər Nazirliyi tərəfindən vergilərin tədrisi ilə əlaqədar şagird və tələbələr üçün bir neçə dərslik nəşr edilib, ümumtəhsil məktəblərində vergiləri tədris etmək üçün 50-dən çox metodiki kabinet təşkil olunub, Azərbaycan Dövlət İqtisad Universitetində «Vergi və vergiqoyma» kafedrası yaradılıb. Hər il «Vergilər uşaqların gözü ilə» uşaq rəsm müsabiqəsi, orta və ali təhsil müəssisələrində vergilərə aid bilik yarışları keçirilir. Bütün bu məqsədyönlü tədbirlər insanların vergiyə aid zəruri biliklərinin mənimsənilməsində mühüm rol oynayır. E.Məmmədov «VISA» şirkəti ilə birgə həyata keçirilən «İqtisadi futbol» layihəsini bir oyun janri olmaqla yanaşı, əhaliyə, xüsusən gənc nəslə iqtisadi biliklər, o cümlədən vergilər barədə bilikləri aşılamaq, vergi mədəniyyətinin artırılmasına kömək edəcəyinə inandığını bildirib.

Oyun qaydalarına gəlincə, qeyd edək ki, «İqtisadi futbol» yeniyetmələrə, orta məktəb şagirdlərinə və yetkin yaşlı insanlara istiqamətlənmiş üç çətin mərhələdən ibarətdir. Suallar və mövzular yığım və büdcə, vergilər, kredit və digər bank xidmətlərindən səmərəli istifadə olunmasını əhatə edir. Oyun, həmçinin, özü-özünə öyrənmə variantını da təklif edir. 4 təlim modulunu bitirdikdən sonra oyunçular yığım və büdcənin əsaslarını, vergilərin nə üçün ödənildiyini, etibarlı borcalan olmağın nə demək olduğunu və ödəniş kartını necə seçməyi öyrənirlər. Oyunda virtual meydançada istənilən futbol komandasının görüşünü təşkil etmək mümkündür. İştirakçılar onlara təqdim olunan bir neçə variant arasından sualın düzgün cavabını tapmaqla oyunda növbəti mərhələyə keçirlər. Hər düzgün cavab irəliyə doğru bir addımdır və qapıya zərbələr qol vurulması ilə nəticələnir. «İqtisadi futbol»un Azərbaycan və rus dilində versiyaları mövcuddur. Yaxın günlərdə oyunu onlayn şəkildə Azərbaycan və rus dillərində oynamaq mümkün olacaq.

Elbrus CƏFƏRLİ